# KOB SUBYEKTLƏRİNİN BİZNES YÖNÜMLÜ TƏLİM EHTİYACLARININ MÜƏYYƏN EDİLMƏSİ

# MÜNDƏRİCAT

01 Sorğu Haqqında Ümumi Məlumat

02 Sorğu Üzrə Respondentlər Haqqında Ümumi Məlumat

03 Sorğunun Nəticələri

04 Çarpaz Testlər

05 Təhlillərə Uyğun Müvafiq Təkliflər

01

# SORĞU HAQQINDA ÜMUMİ MƏLUMAT

# SORĞU HAQQINDA ÜMUMİ MƏLUMAT

**KOBİA**

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

**GMB Klaster Konsaltinq**

Sorğu KOBİA-nın sifarişi əsasında «GMB Klaster Konsaltinq» MMC şirkəti tərəfindən keçirilmişdir.

# SORĞU HAQQINDA ÜMUMİ MƏLUMAT

## SORĞUNUN MƏQSƏDİ

KOB subyektlərinin biznes yönümlü təlim ehtiyaclarının müəyyən edilməsi məqsədi ilə keçirilmişdir.

## SORĞUNUN HƏDƏFİ

Sorğunun hədəfi mikro, kiçik və orta sahibkarlıq müəssisələridir.

## KEÇİRİLMƏ METODOLOGİYASI

Sorğuda anket metodu tətbiq edilmişdir.

## RESPONDENTLƏRİN ÜMUMI SAYI

Sorğuda 116 KOB subyekti iştirak etmişdir.

## SORĞUNUN ƏHATƏ ETDİYİ DÖVR

31.10.2025 – 07.12.2025 dövrlərini əhatə edir.

02

# Respondentlər Haqqında Ümumi Məlumat

01

# Müəssisənin fəaliyyət göstərdiyi iqtisadi rayon (Rəqəmlərlə)



01

# Müəssisənin fəaliyyət göstərdiyi iqtisadi rayon (Faizlərlə)



02

# Hüquqi statusu






03

# Fəaliyyət sahəsi






04

# Müəssisəniz neçə ildir fəaliyyət göstərməkdədir?






05

# Müəssisənizdə neçə nəfər işçi çalışır?






06

# Sorğuda iştirak edən






07

# Sahibkarlıq fəaliyyətində idarəetmə təcrübəniz nə qədərdir?






# 08 Cins






09

# Təhsil



Bakalavr
78
Magistratura və ya Doktorantura
37
Tam orta təhsil (11 illik)
1




1%
32%
67%
Tam orta təhsil (11 illik)
Magistratura və ya Doktorantura
Bakalavr

03

# Sorğunun Nəticələri

01

## Hazırda ən çox ehtiyac duyduğunuz təlim sahəsi hansıdır (bir neçə cavab verilə bilər)?

| Təlim sahəsi | Say | Faiz |
|---|---|---|
| Biznes idarəçiliyi | 19 | 9,6% |
| Marketinq və satış | 45 | 22,8% |
| Maliyyə və mühasibatlıq | 33 | 16,8% |
| Rəqəmsal bacarıqlar (IT, sosial media, e-ticarət) | 27 | 13,7% |
| Hüquq və vergi məsələləri | 28 | 14,2% |
| İxrac və beynəlxalq bazarlara çıxış | 18 | 9,1% |
| İnsan resursları və liderlik | 14 | 7,1% |
| Startap və innovasiya bacarıqları | 5 | 2,5% |
| Digər | 8 | 4,1% |

02

# Təlimlərə qatılmaqda əsas məqsədiniz nədir? (bir neçə cavab verilə bilər)?

| Təlimlərə qatılmaqda əsas məqsəd | Say | Faiz |
|---|---|---|
| Mövcud biznesi təkmilləşdirmək | 72 | 32,4% |
| Yeni biznes ideyaları qazanmaq | 84 | 37,8% |
| Şəxsi inkişaf | 46 | 20,7% |
| Şəbəkələşmə (networking) | 20 | 9,0% |

03

## Hazırda şirkətinizdə təlimlərlə bağlı hansı çətinliklər mövcuddur (bir neçə cavab verilə bilər)?

| Çətinliklər | Say | Faiz |
|---|---|---|
| Uyğun təlim mövzularının azlığı | 22 | 12,6% |
| Təlimlərin uzaq məsafədə keçirilməsi | 17 | 9,8% |
| Təlimlərin bahalığı | 31 | 17,8% |
| Vaxt çatışmazlığı | 91 | 52,3% |
| Təlimlərin praktik olmaması | 10 | 5,7% |
| Digər | 3 | 1,7% |

04

# Təlimlərə hansı formatda üstünlük verirsiniz (bir neçə cavab verilə bilər)?

| Format | Say | Faiz |
| --- | --- | --- |
| Əyani təlimlər | 62 | 30,8% |
| Onlayn təlimlər | 96 | 47,8% |
| Qısamüddətli seminarlar | 34 | 16,9% |
| Mentorluq və konsultasiya proqramları | 9 | 4,5% |

05

# Təlimlərin keçirilmə müddəti ilə bağlı üstünlük verərdiniz:






06

# Təlim materiallarının hansı dildə keçirilməsini üstün tutursunuz (bir neçə cavab verilə bilər)?

| Dil | Say | Faiz |
|---|---|---|
| Azərbaycan dili | 103 | 73,0% |
| Rus dili | 20 | 14,2% |
| İngilis dili | 14 | 9,9% |
| Qarışıq format | 4 | 2,8% |

07

# Təlimlərdə hansı formatı üstün tutardınız?






08

# Təlimlərdə iştirak üçün sizi ən çox nə motivasiya edir (bir neçə cavab verilə bilər)?

| Motivasiya | Say | Faiz |
|---|---|---|
| Yeni bilik və bacarıq qazanmaq | 53 | 25,0% |
| Biznes əlaqələrini genişləndirmək | 101 | 47,6% |
| Dövlət dəstəyi mexanizmləri barədə məlumat | 30 | 14,2% |
| Sertifikat almaq | 28 | 13,2% |

09

# Hansı mövzularda KOBİA təlimlərində iştirak etmisiniz (bir neçə cavab verilə bilər)?

| KOBİA təlimləri | Say | Faiz |
|---|---|---|
| Satış | 8 | 5,4% |
| Yumşaq bacarıqlar (Soft skills) | 1 | ,7% |
| Layihə idarəetməsi | 14 | 9,5% |
| Marketinq | 13 | 8,8% |
| Rəqəmsal bacarıqlar | 10 | 6,8% |
| Korporativ hüquq | 6 | 4,1% |
| Təchizat zəncirinin idarə olunması | 10 | 6,8% |
| Maliyyə idarəetməsi | 8 | 5,4% |
| Yaşıl iqtisadiyyat | 1 | ,7% |
| Sosial sahibkarlıq | 4 | 2,7% |
| Təlimlərdə iştirak etməmişəm | 72 | 49,0% |

10

# Etmisinizsə, təlimlərin ümumi keyfiyyətini necə qiymətləndirirsiniz?






11

# Təlimlərin məzmunu biznes fəaliyyətinizə nə dərəcədə uyğun idi?









# Təlimlərin müddəti və formatı (onlayn/əyani) sizin üçün nə dərəcədə münasib idi?






# 13 Təlimçilərin peşəkarlıq səviyyəsi barədə fikirlər






14

# Təlim zamanı təqdim edilən materiallar (slaydlar, nümunələr, vəsaitlər) nə qədər faydalı idi?






15

# Təlimlər nəticəsində əldə etdiyiniz bilikləri tətbiq etmisinizmi?






16

# Təlimlər biznesinizə hansı sahədə ən çox təsir göstərdi?






17

# Təlimlərdən sonra KOBİA-nın təklif etdiyi əlavə dəstək xidmətlərindən (məsələn: qrant, startap şəhadətnaməsinin əldə edilməsi, sərgilər və s.) istifadə etmisinizmi?






18

# KOBİA təlimlərinin regionlarda əlçatanlığını necə qiymətləndirirsiniz?






19

## Təlimlərdə iştirak etməməyinizin əsas səbəbi (əgər iştirak etməmisinizsə) (bir neçə cavab verilə bilər)?

| Səbəb | Say | Faiz |
|---|---|---|
| Vaxt çatışmazlığı | 60 | 36,6% |
| Təlim mövzularının uyğun olmaması | 16 | 9,8% |
| Məlumat azlığı | 59 | 36,0% |
| İştirak etmişəm | 24 | 14,6% |
| Digər | 5 | 3,0% |

# 20 KOBİA-nın təlim xidmətlərinin daha da təkmilləşdirilməsi üçün təkliflər

20-ci sualda təqdim olunan bütün təkliflər ümumiləşdirildikdə, respondentlərin əsas gözləntilərinin təlim prosesinin praktiki yönümlülüyünün artırılması, regionlarda əlçatanlığın genişləndirilməsi, müxtəlif sahələr üzrə spesifik və real iş nümunələrinə əsaslanan proqramların hazırlanması, rəqəmsal və hibrid formatların sayının çoxaldılması, həmçinin tədris materiallarının açıq şəkildə təqdim olunması kimi istiqamətlərdə cəmləşdiyi müəyyən edilmişdir.

Təlimlərin daha çox **praktiki yönümlü**, real biznes-case və real situasiyalar üzərində qurulması geniş şəkildə tələb olunur.

Regionlarda **əyani və əlçatan** təlimlərin sayının artırılması iştirakçıların daha çox fayda əldə etməsinə şərait yaradacaq.

Bir çox sahə üzrə — mühasibatlıq, vergi, hüquq, ticarət, logistika, turizm və kənd təsərrüfatı — **sahəyə spesifik təlimlərə** ehtiyac yüksəkdir.

Rəqəmsal marketinq, PR, media, brend kommunikasiya kimi mövzularda **real nümunələrə əsaslanan tətbiqi dərslərin** artırılması təklif olunur.

IT, proqramlaşdırma, kibertəhlükəsizlik və innovasiya sahələrində **praktiki layihələr və startap yönümlü modulların** gücləndirilməsi vacib hesab edilir.

Vergi, audit, maliyyə və mühasibatlıq üzrə **yenilənmiş qanunvericiliyə əsaslanan nümunəvi hesabatlı təlimlərə** ehtiyac var.

Sahibkarların fəaliyyət sahəsinə uyğun **sektoral və fərdiləşdirilmiş təlim proqramlarının** hazırlanması daha effektiv nəticə verəcək.

Təlimlərin iş qrafikini nəzərə alaraq **şənbə-bazar günlərinə keçirilməsi** və daha çox **onlayn/hibrid formatın** təmin edilməsi arzu edilir.

Təlim materiallarının iştirak edə bilməyənlər üçün **onlayn paylaşılması** və resursların daha açıq şəkildə təqdim edilməsi təklif olunur.

Təlimlərin keyfiyyətinin artırılması üçün **praktik bacarıqlar, interaktiv metodika və real data üzərində işləmə imkanları** genişləndirilməlidir.

# 21 Əlavə şərhlər

| | |
|---|---|
| 21-ci sualda təqdim olunan bütün şərhlərin ümumiləşdirilmiş təhlili göstərir ki, respondentlərin əsas gözləntiləri təlimlərin davamlı və praktiki yönümlü təşkil olunması, real situasiya və layihələr üzərində təcrübə imkanlarının yaradılması, regionlarda və onlayn formatlarda əlçatanlığın artırılması, sahəyə uyğunlaşdırılmış mentorluq və konsultasiya dəstəyinin təmin edilməsi, eləcə də təlim materiallarının açıq resurslar vasitəsilə geniş auditoriyaya təqdim olunması kimi prioritet istiqamətlərdə cəmləşir. | Təlimlərin davamlılığı və təlimdən sonrakı məsləhət–mentor dəstəyinin təmin edilməsi. |
| | Təlimlərin praktiki, interaktiv və real situasiya əsaslı keçirilməsi. |
| | Regionlarda təlimlərin əlçatanlığının və miqyasının artırılması. |
| | Onlayn və hibrid təlim formatlarının genişləndirilməsi və qrafikin çevikləşdirilməsi. |
| | Təlim proqramlarının sahələr üzrə yenilənməsi və yeni texnologiyalara uyğunlaşdırılması. |
| | Real layihələr, real şirkət nümunələri və avadanlıqlar üzərində təcrübə imkanlarının yaradılması. |
| | Sahəyə uyğun mentorluq və konsultasiya proqramlarının gücləndirilməsi. |
| | Təlim materiallarının açıq şəkildə paylaşılması və resurslara əlçatanlığın artırılması. |
| | Beynəlxalq standartlara, rəqəmsal alətlərə və innovativ texnologiyalara dair modul proqramların hazırlanması. |
| | Müxtəlif peşə və sahələr üçün spesifik, ehtiyaca uyğunlaşdırılmış təlimlərin təşkili. |

04

# Çarpaz Testlər

# Müəssisənin İşçi Sayına Görə Çarpaz Testlər

| | | 1. Hazırda ən çox ehtiyac duyduğunuz təlim sahəsi hansıdır (bir neçə cavab verilə bilər)? | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Biznes idarəçiliyi | Marketinq və satış | Maliyyə və mühasibatlıq | Rəqəmsal bacarıqlar (IT, sosial media, e-ticarət) | Hüquq və vergi məsələləri | İxrac və beynəlxalq bazarlara çıxış | İnsan resursları və liderlik | Startap və innovasiya bacarıqları | Digər |
| Müəssisə nizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 16,2% | **41,2%** | 27,9% | 25,0% | 23,5% | 8,8% | 8,8% | 2,9% | 8,8% |
| | 11-50 (Kiçik) | 10,0% | **53,3%** | 23,3% | 23,3% | 26,7% | 16,7% | 16,7% | 6,7% | 3,3% |
| | 51-250 (Orta) | 27,8% | 5,6% | **38,9%** | 16,7% | 22,2% | **38,9%** | 16,7% | 5,6% | 5,6% |

| | | 2. Təlimlərə qatılmaqda əsas məqsədiniz nədir (bir neçə cavab verilə bilər)? | | | |
|---|---|---|---|---|---|
| | | Mövcud biznesi təkmilləşdirmək | Yeni biznes ideyaları qazanmaq | Şəxsi inkişaf | Şəbəkələşmə (networking) |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 73,5% | **79,4%** | 32,4% | 16,2% |
| | 11-50 (Kiçik) | 46,7% | **66,7%** | 53,3% | 6,7% |
| | 51-250 (Orta) | 44,4% | **55,6%** | 44,4% | 38,9% |

| | | 3. Hazırda şirkətinizdə təlimlərlə bağlı hansı çətinliklər mövcuddur (bir neçə cavab verilə bilər)? | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Uyğun təlim mövzularının azlığı | Təlimlərin uzaq məsafədə keçirilməsi | Təlimlərin bahalığı | Vaxt çatışmazlığı | Təlimlərin praktik olmaması | Digər |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 19,1% | 5,9% | 13,2% | **91,2%** | 4,4% | 2,9% |
| | 11-50 (Kiçik) | 16,7% | 33,3% | 46,7% | **63,3%** | 10,0% | 3,3% |
| | 51-250 (Orta) | 22,2% | 16,7% | 44,4% | **55,6%** | 22,2% | 0,0% |

| | | 4. Təlimlərə hansı formatda üstünlük verirsiniz (bir neçə cavab verilə bilər)? | | | |
|---|---|---|---|---|---|
| | | Əyani təlimlər | Onlayn təlimlər | Qısamüddətli seminarlar | Mentorluq və konsultasiya proqramları |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 72,1% | **92,6%** | 23,5% | 4,4% |
| | 11-50 (Kiçik) | 30,0% | **70,0%** | 43,3% | 6,7% |
| | 51-250 (Orta) | 22,2% | **66,7%** | 27,8% | 22,2% |

## 5. Təlimlərin keçirilmə müddəti ilə bağlı üstünlük verərdiniz:

| | | Qısa təlimlərə (3-4 saatlıq) | 1 günlük seminarlara | 2–3 günlük intensiv proqramlara | 1 həftəlik təlimlərə | Davamlı təlim proqramlarına |
|---|---|---|---|---|---|---|
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | **45,6%** | 10,3% | 4,4% | 5,9% | 33,8% |
| | 11-50 (Kiçik) | 26,7% | **40,0%** | 26,7% | 3,3% | 3,3% |
| | 51-250 (Orta) | **55,6%** | 5,6% | 5,6% | 11,1% | 22,2% |

| | | 8. Təlimlərdə iştirak üçün sizi ən çox nə motivasiya edir (bir neçə cavab verilə bilər)? | | | |
|---|---|---|---|---|---|
| | | Yeni bilik və bacarıq qazanmaq | Biznes əlaqələrini genişləndirmək | Dövlət dəstəyi mexanizmləri barədə məlumat | Sertifikat almaq |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 50,0% | **91,2%** | 20,6% | 19,1% |
| | 11-50 (Kiçik) | 30,0% | **90,0%** | 40,0% | 23,3% |
| | 51-250 (Orta) | 55,6% | **66,7%** | 22,2% | 44,4% |

# 9. Hansı mövzularda KOBİA təlimlərində iştirak etmisiniz (bir neçə cavab verilə bilər)?

| | | Satış | Yumşaq bacarıqlar (Soft skills) | Layihə idarəetməsi | Marketinq | Rəqəmsal bacarıqlar | Korporativ hüquq | Təchizat zəncirinin idarə olunması | Maliyyə idarəetməsi | Yaşıl iqtisadiyyat | Sosial sahibkarlıq | Təlimlərdə iştirak etməmişəm |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Müəssis ənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 4,4% | 0,0% | 0,0% | 5,9% | 1,5% | 1,5% | 1,5% | 4,4% | 0,0% | 1,5% | **86,8%** |
| | 11-50 (Kiçik) | 6,7% | 3,3% | **40,0%** | 16,7% | 23,3% | 13,3% | 26,7% | 13,3% | 3,3% | 3,3% | 23,3% |
| | 51-250 (Orta) | 16,7 % | 0,0% | 11,1% | 22,2% | 11,1% | 5,6% | 5,6% | 5,6% | 0,0% | 11,1% | **33,3%** |

| | | 11. Təlimlərin məzmunu biznes fəaliyyətinizə nə dərəcədə uyğun idi? | | |
|---|---|---|---|---|
| | | Tam uyğun | Qismən uyğun | Təlimlərdə iştirak etməmişəm |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 5,9% | 5,9% | **88,2%** |
| | 11-50 (Kiçik) | 6,7% | **60,0%** | 33,3% |
| | 51-250 (Orta) | 22,2% | **44,4%** | 33,3% |

| | | 12. Təlimlərin müddəti və formatı (onlayn/əyani) sizin üçün nə dərəcədə münasib idi? | | |
|---|---|---|---|---|
| | | Tam uyğun | Qismən uyğun | Təlimlərdə iştirak etməmişəm |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 5,9% | 5,9% | **88,2%** |
| | 11-50 (Kiçik) | 6,7% | **63,3%** | 30,0% |
| | 51-250 (Orta) | 27,8% | **38,9%** | 33,3% |

| | | 15. Təlimlər nəticəsində əldə etdiyiniz bilikləri tətbiq etmisinizmi? | | |
|---|---|---|---|---|
| | | Bəli, mütəmadi | Bəzən | Təlimlərdə iştirak etməmişəm |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 4,4% | 7,4% | **88,2%** |
| | 11-50 (Kiçik) | 0,0% | **60,0%** | 40,0% |
| | 51-250 (Orta) | 22,2% | **44,4%** | 33,3% |

## 16. Təlimlər biznesinizə hansı sahədə ən çox təsir göstərdi?

| Müəssisənizdə neçə nəfər işçi çalışır? | | Satışların artımı | Menecmentin yaxşılaşması | Marketinq və müştəri cəlbi | Təlimlərdə iştirak etməmişəm | Maliyyə planlaşdırması | Digər |
|---|---|---|---|---|---|---|---|
| | 1-10 (mikro) | 1,5% | 0,0% | 2,9% | <u>88,2%</u> | 5,9% | 1,5% |
| | 11-50 (Kiçik) | 6,7% | 23,3% | 23,3% | **<u>33,3%</u>** | 10,0% | 3,3% |
| | 51-250 (Orta) | 5,6% | 5,6% | 27,8% | **<u>33,3%</u>** | 27,8% | 0,0% |

| | | 17. Təlimlərdən sonra KOBİA-nın təklif etdiyi əlavə dəstək xidmətlərindən (məsələn: qrant, startap şəhadətnaməsinin əldə edilməsi, sərgilər və s.) istifadə etmisinizmi? | | |
|---|---|---|---|---|
| | | Bəli | Xeyr | Məlumatım yoxdur |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 4,4% | **54,4%** | 41,2% |
| | 11-50 (Kiçik) | 3,3% | 20,0% | **76,7%** |
| | 51-250 (Orta) | 22,2% | **38,9%** | **38,9%** |

| | | 18. KOBİA təlimlərinin regionlarda əlçatanlığını necə qiymətləndirirsiniz? | | | |
|---|---|---|---|---|---|
| | | Yüksək | Orta | Aşağı | Fikrim yoxdur |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 2,9% | 10,3% | 1,5% | **85,3%** |
| | 11-50 (Kiçik) | 3,3% | 40,0% | 3,3% | **53,3%** |
| | 51-250 (Orta) | 5,6% | 33,3% | 11,1% | **50,0%** |

| | | 19. Təlimlərdə iştirak etməməyinizin əsas səbəbi (bir neçə cavab verilə bilər) | | | | |
|---|---|---|---|---|---|---|
| | | Vaxt çatışmazlığı | Təlim mövzularının uyğun olmaması | Məlumat azlığı | İştirak etmişəm | Digər |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | **72,1%** | 0,0% | 64,7% | 7,4% | 2,9% |
| | 11-50 (Kiçik) | 13,3% | **46,7%** | **46,7%** | 33,3% | 3,3% |
| | 51-250 (Orta) | 38,9% | 11,1% | 5,6% | **50,0%** | 11,1% |

04

# Təhlillərə Uyğun Müvafiq Təkliflər

## Təklif 1

- KOB subyektləri üçün sektora görə (xidmət, ticarət, kənd təsərrüfatı) marketinq təlim paketləri hazırlanmmalıdır. Bu zaman “az büdcə ilə marketinq” modulu nəzərə alınmalıdır.

## Təklif 2

- Mikro və kiçik sahibkarlar üçün sosial media satışları təlimləri keçirilməlidir.





**Təklif 3**

- Orta sahibkarlıq subyektləri üçün maliyyə menecmenti və risklərin idarə edilməsi üzrə yüksək səviyyəli təlim paketləri hazırlanmalıdır. KOB-lar üçün illik maliyyə planlaşdırması və pul vəsaitlərinin idarə edilməsi üzrə workshop formatları təlimlər təşkil edilməlidir.




**Təklif 4**

- Azərbaycanda tətbiq olunan vergi dəyişiklikləri, hesabatlıq və rəqəmsal vergi sistemləri üzrə yenilənmiş təlim modulları yaradılmalıdır.



**Təklif 5**

- Yeni biznes ideyaları qazanmaq üçün təlim proqramlarına ideya generasiyası, “brain storming”, “design thinking” sessiyaları daxi edilməlidir.



## Təklif 6

- Təlim öncəsi qısa sorğular keçirilərək təlim mövzuları dinamik şəkildə formalaşdırılmalıdır.




## Təklif 7

- **“Qısa modul” (3–4 saatlıq) təlim paketləri** hazırlanmalıdır.



## Təklif 8

- Sahibkarların bütün təlimlərə istədiyi vaxt baxa bilməsi üçün **recorded (yazılmış) video versiyalar** təqdim edilməlidir.




## Təklif 9

- Mikro sahibkarların iş prosesində mobil cihazlardan istifadə etdiyi üçün təlimlər **mobil uyğun platformada** yerləşdirilməlidir. Mikro sahibkarlar üçün **axşam saatları və həftəsonu** qrupları təşkil olunmalıdır.




## Təklif 10

- **Netflixin abunəlik sistemi**nə bənzər aylıq kiçik ödəmə ilə limitsiz təlim izləmə təşkil edilməlidir. Sahibkar müəyyən mövzuda təlim keçibsə, eyni mövzuda növbəti təlimə **endirim mexanizmi** tətbiq edilsin.



## Təklif 11

- **Tam rəqəmsal təlim platforması** yaradılmalıdır. Bütün təlimlərə: video qeyd, PDF material, özünü qiymətləndirmə testi, praktiki tapşırıq əlavə olunmalıdır.




## Təklif 12

- Sosial şəbəkələrdə, regional KOB evlərində və sahibkar birliklərində daha intensiv maarifləndirmə kampaniyaları aparılmalıdır.

## Təklif 13

- Satış texnikaları, sosial media marketinqi və maliyyə təşkili üzrə daha çox tətbiqi seminarlar keçirilsin. Buna əlavə olaraq sertifikatlı təlimlər və praktiki layihə simulyasiyası təklif oluna bilər.



**Təklif 14**

- Sosial media marketinqi, rəqəmsal reklam, müştəri seqmentasiyası və loyallıq proqramları üzrə daha çox praktiki təlimlər keçirilməlidir.

**Təklif 15**

- Büdcə tərtibi, xərc optimallaşdırılması, kassa axınının idarə edilməsi üzrə praktiki modul proqramları artırılsın. Maliyyə alətləri (Excel modelləşdirmə, mühasibat proqramları və s.) üzrə praktik sessiyalar keçirilsin.






**Təklif 16**

- Orta sahibkarlıq subyektləri üçün rəqəmsal strategiyanın qurulması, müştəri davranışı analitikası təlimləri keçirilsin. CRM sistemlərindən istifadə və müştəri tutma strategiyaları öyrədilsin.

**Təklif 17**

- KOBİA-nın təlim sonrası əlavə dəstək proqramlarının məlumatlandırması gücləndirilməlidir. Təlimdən sonra avtomatik istiqamətləndirmə həyata keçirilməlidir. Təlim bitdikdən sonra KOBİA tərəfindən “sizə uyğun ola biləcək dəstək xidmətləri” barədə fərdi tövsiyə mesajı göndərilməsi məqsədəuyğundur.




**Təklif 18:**

- Region üzrə fərdi koordinatorlar təyin edilərək təllimlər barədə məlumatlandırmanı təmin etməlidir. Fiziki çatışmazlıq səbəbilə iştirak edə bilməyən KOB-lər üçün onlayn imkanlar artırılmalıdır. Sosial media, SMS, e-mail və KOB evləri vasitəsilə məlumat kampaniyaları aparılmalıdır.



**Təklif 19**

- “Məlumatsızlıq” problemi bütün qruplarda ön plandadır, buna görə də elektron və fiziki kampaniyalar, regional KOB nümayəndələri vasitəsilə məlumat çatdırılmalıdır. Mikro sahibkarların mərkəzə gəlmək çətinliyini aradan qaldırmaq üçün kiçik şəhərlərdə və kəndlərdə təlimlər təşkil edilməlidir.



# Təşəkkürlər